**Sənubər MUSTAFAYEVA**
*"Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının baş müəllimi*

**Səfurə HACIYEVA**
*"Kitabxana fondu və kataloqları" laboratoriyasının müdiri*

# KİTABXANA TƏSNİFATI NƏZƏRİYYƏSİNİN İNKİŞAFI

***Açar sözlər:*** *Təsnifat sistemləri, Xarici ölkələrdə kitabxana təsnifatının inkişafı, M.Dyunin təsnifatı, Rusiyada kitabxana təsnifatının yaranması, Coxaspektli təsnifat sistemləri.*

***Ключевые слова:*** *Классификационные системы, Развитие библиотечной классификации за рубежом, Классификация М.Дьи, Развитие библиотечной классификации в России, Многоаспектные классификационные системы.*

***Keywords:*** *Classification systems, development of library classification abroad Classification M.Di, development of library classification in Russia, Multidimensional classification systems.*

XIX əsrin birinci yarısında yaranan təsnifat sistemlərindən biri Elmlər Akademiyasının kitabxanasının direktoru, embriologiya elminin banisi, akademik Karl Maksimoviç Berin (1792-1876) təsnifatı daha çox diqqəti cəlb edir. Onun təsnifatı kitabxananın xarici ədəbiyyat şöbəsinin kataloqunu təşkil etmək və fondu sistemləşdirmək üçün nəzərdə tutulmuşdur. Təsnifat 1841, 1908-ci illərdə latın dilində, 1926-cı ildə rus dilində çap edilib. Təsnifatın şöbələrinin əsas bölmələri aşağıdakılardır: (1,s.97)

I. Biblioqrafiya və ümumi ədəbiyyat tarixi
II. Ümumi və elmi poliqrafiya kitabları
III. Dilçilik
IV. Riyaziyyat və astronomiya
V. Ümumi təbiətşünaslıq
VI. Geologiya və minerologiya
VII. Üzvi aləmin təbiətşünaslıq tarixi



VIII. Antropologiya. Ümumi fiziologiya
IX. Siyasət adlanan ümumdünya tarixi və coğrafiya
X. Ayrı-ayrı xarici ölkələrin tarixi və coğrafiyası
XI. Siyasət və hüquqşünaslıq
XII. İqtisadiyyat və texnologiya
XIII. İncəsənət və ümumi arxeologiya
XIV. Söz sənəti
XV. İlahiyyat
XVI. Fəlsəfə
XVII. Təbabət
XVIII. Hərbi və dəniz işi
XIX. Memarlıq və inşaat işləri
XX. Əlyazmaları və əllə bəzək işləri
XXI. Akademiya kitabxanasının bütün kataloqları

Əvvəlki təsnif sistemlərindən fərqli olaraq burada əsas şöbələrin ümumi ardıcıllığı elmi şəkildə əsaslandırılırdı. Başlıca prinsip cansız aləmdən canlı aləmə, insanın, cəmiyyətin və mənəvi fəaliyyətin inkişafında özünü göstərmişdir. Burada həmçinin tətbiqi elmlər də bir-birinə yaxınlaşdırılmışdır. Berin təsnifatında dilçilik bütün fənnlərin öyrənilməsinin bazası kimi verilmişdir.

Beləliklə Ber öz təsnifatında elmlər arasında məntiqi ardıcıllıq yaratmağa çalışmış və buna qismən də olsa nail ola bilmişdir. Onun təsnifatının başqa bir xüsusiyyəti odur ki, şöbələrin yarımşöbələrə ayrılması üçün imkan vardır. O, əsas şöbələri rum rəqəmi, yarımşöbələri latın hərfləri ilə, bölmələri yunan hərfləri ilə işarə etmişdir.

XIX əsrdə Moskva və Kazan Universitet kitabxanalarının fondunun və kataloqlarının sistemləşdirilməsini qaydaya salmaq məqsədilə bir sıra təsnifat sistemləri yaranmışdır.

Moskva Universitet kitabxanasının təsnifatı kimya üzrə professor, Rusiya Fizika-tibb cəmiyyətinin prezidenti Fyodor Fyodoroviç Reyss (1778-1852) tərəfindən hazırlanmışdır.(4,s137) 1812-ci ildə yanğın nəticəsində məhv olan kitabxananın direktoru Reyss, sonralar bu kitabxananı ən qabaqcıl kitabxanalardan birinə çevirmişdir. 1826-cı ildə o öz təsnifat sistemini yaratmışdır. Bu təsnifat həm kataloqun sistemli düzülüşü, həm də rəfdə kitabların düzülüşü üçün nəzərdə tutulmuşdur. Təsnifatın xətti sistemi 10 əsas şöbədən ibarət idi. Bu sistemdə həm də mürəkkəb terminologiyadan istifadə edilirdi.

Təsnifat quruluşundakı nöqsan cəhət bölmələrdə daha çox xırdalanmaların (2500) aparılmasıdır. Halbuki kitabxana fondunda 30.000 kitab var idi. Bəzən bir bölməyə bir neçə kitab düşürdü. Lakin təsnifatın bir sıra müsbət cəhətləri də vardı. Belə ki, nəşrlərin müxtəlif növü (lüğətlər, cədvəllər, dərsliklər) çoxlu miqdarda bölgülərə malik idi. Bu təsnifatın əsas şöbələri ərəb rəqəmləri ilə, yarımşöbələri isə latın hərfləri ilə işarələnirdi.

Təsnifatın digər üstün cəhətlərindən biri də odur ki, fondda ədəbiyyatın sistemləşdirilməsində şöbələr daxilində uyğunluq var idi və burada ədəbiyyat xronoloji qaydada düzülürdü. Reyssin təsnifat sahəsində fəaliyyəti "Universitet kitabxanalarının sistemli kataloqları" adlı 3 cildlik əsəri ilə başa çatır (1831-1836).

Kazan Universitet kitabxanasına 1835-ci ildən ona rəhbərlik edən Karl Karloviç Foyqt (1808-1873) öz təsnifatının orijinal sxemini hazırlamışdır. O, 1834-cü ildən Universitetin rektoru Lobaçevskinin nəzarəti ilə "Kitabxananın yerləşməsi planı"nı tərtib edir.

O, öz sxeminin əvvəlində ən mühüm xarici ölkə təsnifatlarının sistemini və tənqidi xülasəsini verərək belə bir nəticəyə gəlmişdir ki, bunların heç biri kitabxana təsnifatının tələblərinə cavab vermir. Onun təsnifatının əsas bölmələri aşağıdakılardır:

I. Sənaye
II. Hərbi elmlər
III. Hüquq və siyasət
IV. Təbabət
V. Təbii elmlər. Zoologiya, botanika
VI. Minerologiya, kimya , fizika
VII. Riyaziyyat elmləri
VIII. Fəlsəfə və pedaqogika
IX. İlahiyyat
X. Tarix elmləri
XI. Filologiya
XII. Söz sənəti
XIII. Zərif rəssamlıq
XIV. Ensiklopediya və biblioqrafiya

K.K.Foyqt sxeminin başlıca ideyası insan zəkasının bütövlüyüdür.

Göründüyü kimi onun sxeminin əsasını elmlərin insan tələbatına görə bölgüsü təşkil edir. Odur ki, sxemdə birinci yeri "ərzaq" tələbatı ilə bağlı olan "sənaye" elmləri tutur.



Qeyd etmək lazımdır ki, Foyqtın təsnifatı Reyssin təsnifatına nisbətən daha müvəffəqiyyətli olmuşdur, lakin nəşr edilməyinə görə bu təsnifat xeyli müddət naməlum olaraq qalmışdır.

XIX əsrin ortalarında yalnız biblioqrafik göstəricilərin tərtibində istifadə edilən biblioqrafiya təsnifatları da meydana gəlir. Bu cəhətdən görkəmli rus biblioqrafı, mütərəqqi ictimai xadim Vasiliy Qriqoriyeviç Anastasiyeviçin (1775-1845) təsnifatını göstərmək olar. Anastasiyeviçin təsnifatında bölmələr üzrə 3 obyekt (təbiət, cəmiyyət, dil) əsas götürülmüşdür. Bu cür bölgü şübhəsiz ki, məntiqi xarakter daşıyır.

Anastasiyeviç öz təsnifatında bölmələrdə xırdalanmaların əleyhinə çıxır. Reyss kimi bəzi hallarda o əlifba düzülüşünü tətbiq edirdi: tarixdə ayrı-ayrı ölkələr; ədəbiyyatda müəlliflər və s.

XIX əsrin II yarısında ən böyük biblioqraflardan biri Vasiliy İzmayloviç Mejov (1831-1894) öz biblioqrafik fəaliyyəti ilə xüsusi fərqlənmişdir.

Mejovun təsnifatı 16 şöbədən ibarətdir: (4,s.166)

I. İlahiyyat
II. Fəlsəfə
III. Pedaqogika
IV. Hüquqşünaslıq və siyasi elmlər
V. Texnologiya
VI. Kənd təsərrüfatı
VII. Tarix
VIII. Coğrafiya və etnoqrafiya
IX. Riyaziyyat elmləri
X. Hərbi və dəniz elmləri
XI. Təbiətşünaslıq
XII. Tibb elmləri
XIII. İncəsənət
XIV. Dilçilik
XV. Ədəbiyyat
XVI. Məlumat kitabları

Mejov öz təsnifatında sistemli düzülüşü müdafiə edərək onun bəzi üstün cəhətlərini göstərməyə çalışmışdır. 20 il ərzində (1869-1889) onun kitab şəklində sistemli kataloqları nəşr olunurdu. O, öz əsərlərində təkcə kitabları deyil həmçinin məqalələri də əks etdirirdi.

Mejovun əsərlərində onun müasirləri həm materialların düzülüşündə, həm də sistemləşdirilməsində bəzi nöqsanları da qeyd edirdilər.

Mejovun təsnifatı bəzi qüsurlarına görə Anastasiyeviçin təsnifatından geri qalmasına baxmayaraq o dövrdə Peterburq ümumi kitabxanasında geniş tətbiq edilirdi.

Kitabxana təsnifatı XIX əsrdə nəzəri və təcrübi cəhətlərinə görə əhəmiyyətli dərəcədə inkişaf etməyə başlayır. Kitabxanaların inkişafı və onların fondunun getdikcə zənginləşməsi fondun yeni qaydada təsnifləşdirilməsini tələb edirdi. Beləliklə, bu dövrdə bir sıra təsnifat sistemləri meydana gəlir. Bu təsnifatlardan Melvil Düinin (1851-1931) "Onluq Təsnifatı" diqqəti daha çox cəlb etmişdir.(4,s.181) Düi Amerikanın ən görkəmli ictimai xadimlərindən və məşhur kitabxanaşünaslarından biri olmuşdur. O, əvvəlcə Kolumb Universitetinin kitabxanaçısı olmuş, sonralar isə Nyu-York kütləvi kitabxanasına rəhbərlik etmişdir. O, həmçinin ABŞ Kitabxana Cəmiyyətinin prezidenti və "Qədim kitabxanaçılıq" jurnalının (ABŞ-da indi də çap edilir) redaktoru olmuşdur.

M.Düi AŞD-da ilk kitabxanaçılıq təhsili məktəbinin yaradıcısı və professoru kimi məşhurdur. Vahid kataloq kartoçkalarının, kitabxana avadanlığının hazırlanması və digər işlər Düinin adı ilə bağlıdır. Professor təsnifat sahəsində daha çox məşhurdur.

Düi onluq təsnifat üzərində hələ 21 yaşlarında kollecdə təhsil alarkən düşünmüşdü. O, onluq təsnifatın ilk variantını 1872-ci ildə tərtib etmişdi. Onun təsnifatı Kollecin kitabxanası tərəfindən 1873-cü ildə bəyənilmişdir. Bundan sonra Kollec kitabxanası bu yeni sistem üzərində işləməyə başlamışdır.

1876-cı ildə "Amerika Birləşmiş Ştatlarının Ümumi Kitabxanaları" adlı məcmuəsində də Düinin məqaləsi dərc edilir. Bu məqalədə onluq təsnifatın əsas prinsipləri izah olunur. Yenə həmin ildə onun "Kitabxana kataloqlarının sistemləşdirilməsi və yerləşdirilməsi üçün təsnifat və predmet göstəricisi" adlı kitabçası nəşr olunur. Kitabça cəmisi 42 səhifədən ibarət idi. Bunun 11 səhifəsi təsnifatdan, qalanı isə predmet göstəricisindən ibarət idi. Düinin təsnifatı nəşr olunduqdan üç il sonra kitabxanaların işində tətbiq olunmağa başlayır.

1885-ci ildə Düinin həmin əsəri "Onluq Təsnifat" adı ilə 2-ci dəfə 314 səhifədən ibarət nəşr olunur. Bu nəşr Düini tezliklə məşhurlaşdırır. Üç il sonra "Onluq Təsnifat"ın 3-cü nəşri 416 səhifədən ibarət, bir daha üç il sonra 4-cü nəşri çap olunur. Düinin əsərinin 14-cü nəşri 1942-ci ildə 1927 səhifədən ibarət nəşr olunmuşdur. Tam 18-ci nəşri isə 1971-ci ildə çap edilmişdir. Hazirda M.Düinin təsnifatının 21-ci nəşri çap edilmişdir. Təsnifat



30-dan artıq xarici dilə tərcümə edilmişdir. 135 ölkənin 200 mindən artıq kitabxanasında tətbiq edilir. M.Düinin təsnifatının 21-ci nəşri 4 cilddən ibarət rus dilinə tərcümə edilmişdir. Birinci cild girişdən, ikinci və üçüncü cildlər əsas cədvəllərdən, dördüncü cild isə əlifda-predmet göstəricisindən ibarətdir.

M.Düinin təsnifatında hər bir anlayışın və predmetin dəqiq və sabit yeri vardır, şöbələr, yarımşöbələr və bölmələrin hamısı ərəb rəqəmləri ilə işadə edilmişdir. Bu cəhət "Onluq Təsnifat"ın beynəlxalq xarakterini asanlaşdırır. M.Dyunin "Onluq təsnifat"ı əsasən ABŞ kütləvi kitabxanalarında tətbiq olunur. ABŞ Konqres kitabxanasının buraxdığı çap kartoçkalarında M.Düinin təsnifatının indeksi verilir. Beləliklə, M.Düinin "Onluq Təsnifat"ını ABŞ milli təsnifatı kimi adlandırmaq olar.

M.Düi "Onluq Təsnifat"ı hazırlamaq üçün kitabxana işinə dair yüzlərlə əsər oxumuş, 500-ə yaxın kitabxanada araşdırma aparmışdır. Onun təsnifatına görə bütün bilik sahələri 10 əsas şöbəyə, hər şöbə öz növbəsində 10 yarımşöbəyə, hər yarımşöbə isə 10 bölməyə ayrılmışdır.Təsnifat cədvəlinin "Onluq Təsnifat" adlanmasının səbəbi də məhz bununla izah edilmişdir. Düinin təsnifatı üç rəqəmlə işarələnərək aşağıdakı ardıcıllıqla verilmişdir.

000 ümumi xarakterli kitablar
100 fəlsəfə
200 din
300 sosiologiya
400 filologiya
500 təbii elmlər
600 faydalı incəsənət
700 incəsənət
800 ədəbiyyat
900 tarix

Hər şöbənin yarımşöbəsi və yarımbölməsi üçün isə 10 yer ayırmışdır ki, bunlar da həmçinin üç rəqəmli işarələrlə təsnifləşdirilir. Məsələn, 540 kimyanın əsas şöbəsidir, 541, 542, 543, 544 və s. onun yarımşöbələridir. Düi təsnifat cədvəlindən istifadəni asanlaşdırmaq məqsədilə ona xüsusi əlifba predmet göstəricisi əlavə etməyi vacib hesab edirdi. Yəni cədvəlin sonunda predmetlərin əlifba göstəricisini tərtib etmək nəzərdə tutulurdu. Əlifba üzrə verilən predmetlərin qarşısında isə əsas şöbənin işarəsi göstərilməli idi.

Köməkçi əlifba-predmet göstəricisi XIX əsrin 70-ci illəri üçün yeni bir məsələ hesab edilirdi. Belə ki, bu məsələ hələ Qesner və Xottinqer tərəfindən qabaqkı əsrlərdə irəli sürülmüşdü.

Sonrakı əsrlərdə bu fikir özünü tamamilə doğruldur və kitabxanalarda sistemli kataloqdan istifadəni asanlaşdırmaq üçün predmetlərin əlifba göstəricisi (kataloqu) bir açar rolunu oynayır.

Düinin "Onluq Təsnifat"ını düzgün qiymətləndirmək üçün hər şeydən əvvəl onun tarixi kökləri ilə tanış olmaq lazımdır. Təsnifatın müqəddiməsində Düi qeyd edir ki, "bu təsnifat kitabxanaşünaslığa dair yüzlərlə kitab üzərində və Amerikanın 50-dən çox müxtəlif kitabxanalarında uzun müddət və gərgin işləməyin nəticəsində yaradılmışdır."

Bu haqda Düi belə yazır: "Ayrı-ayrı elm sahələri üzrə professorların köməkliyi ilə və bir sıra kitabxana işçilərinin əməkdaşlığı sahəsində 1872-1876-cı illərdən mən təsnifat sahəsində hökm sürən bekonizmi devirərək "onluq" təsnifatı yaratmağa müvəffəq oldum, hansı ki, bu təsnifat 10 əsas şöbədən və 100 yarımşöbədən ibarətdir. Lakin mənin hazırladığım 1000 yarımşöbə təsnifat cədvəli qeyri-real hesab olunduğundan 1876-cı ilədək nəşr edilməmişdir.

Düi təsnifatının yaranmasında ona təsir edən mənbələrdən danışarkən göstərir ki, onun təsnifatının yaranmasına səbəb 1871-ci ildə çap olunmuş Natale Battezatinin "Ümumi biblioqrafiyanın yeni sistemi" adlı əsəri olmuşdur. Lakin o, həmin təsnifatın üzünü köçürməmişdir. Həqiqətən də məlum olur ki, hər iki təsnifat biri-birindən xeyli fərqlənirdi.

Lakin bəzi xarici kitabxanaşünaslıq ədəbiyyatında bir qayda olaraq təsdiq edilir ki, Düinin "Onluq Təsnifat"ı öz əsasını XVII əsr ingilis filosofu Bekonun elmlər təsnifatından götürmüşdür. Bu fikir Rusiya kitabxanaşünaslığı ədəbiyyatında da dəfələrə qeyd edilmişdir. Lakin görkəmli biblioqraf, nəzəriyyəçi və tarixçi Şamurin bu fikrin tamamilə əleyhinə çıxaraq Düinin "Onluq Təsnifat"ı ilə Bekonun elmlər təsnifatının heç bir əlaqəsi olmadığını elmi dəlillərlə sübut etməyə çalışmışdır.

Bekon bütün elmləri sistemləşdirilərək insan istedadının üç sahəsini hafizə, düşüncə və təsəvvürü əsas götürmüşdür. Bekonun təsnifatı onun fəlsəfi görüşlərinə əsasən nəzəriyyədən-təcrübəyə, oradan isə istehsalata prinsipini rəhbər tuturdu. Bekon elmlərin təsnifləşdirilməsini onların yaranması və tətqiqi ardıcıllığı ilə əlaqələndirirdi. Məsələn, Allah, təbiət və insan. Düinin təsnifatında isə əvvəl fəlsəfə (100), sonra din (200), daha sonra isə insan cəmiyyəti haqqında elm (300), dilçilik (400) və ən nəhayət təbiətşünaslıq



(500) verilirdi. Düinin təsnifatının Bekonun təsnifatı ilə əlaqəsini onunla izah etməyə çalışırlar ki, onluq təsnifatda filologiya (400) ədəbiyyatdan (800), ictimai elmlər isə (300) tarixdən (900) ayrı verilmişdir.

Bundan da belə qənaətə gəlirlər ki, Düinin onluq təsnifatının əsasında XVII əsr ingilis filosofu Frensis Bekonun təsnifatı durur. Düi Bekonun təsnifatını tərsinə çevirərək öz təsnifatını yaradır. Məsələn, Düinin təsnifatında olan fəlsəfə, din, ictimai elmlər, təbiət elmləri Bekonun təsnifatının III qrupuna (fəlsəfə), incəsənət, ədəbiyyat şöbələri II qrupuna (poeziya), tarix-coğrafiya I qrupuna (tarixə) uyğun gəlir. Lakin buna baxmayaraq onluq təsnifatın yaranması kitabxana işi sahəsində böyük bir hadisə idi.

Düinin onluq təsnifatı 3 böyük hissədən ibarətdir: 1) əsas anlayışlar cədvəli; 2) köməkçi cədvəllər; 3) əlifba-predmet göstəricisi.

Düinin təsnifatnın əsas xüsusiyyətləri ondadır ki, o, müxtəlif şöbələrdə eyni cür yarımşöbələrdən istifadə etməyə çalışmışdır. Bu ondan irəli gəlir ki, Düi kitabxana təsnifatının elmi əsaslarına II dərəcəli əhəmiyyət verir, təcrübi məsələləri isə daha çox işıqlandırırdı.

Düi onluq təsnifatında standart formal bölgülərdən ardıcıl istifadə etmişdir.

01 – nəzəriyyə
02 – rəhbər vəsaitlər
03 – lüğətlər
04 - ocerklər
05 - dövri nəşrlər
06 – cəmiyyət
07 – təlim, təhsil
08 – qarışıq əsərlər
09 – elm tarixi

Bu bölmələr elmlərin və bilik sahələrinin ümumi yarımşöbəsində tətbiq edilir və çap əsərlərinin dəqiq bölgüsü aparılır. Məsələn: 5-ci şöbədə 531mexanika yarımşöbədir, ona 01 nəzəriyyə əlavə etməklə 531.01 mexanikanın nəzəriyyəsi yaradılır.

Beləliklə, Düinin "Onluq Təsnifatı"nın Bekonun elmlər təsnifatı ilə əlaqəsi kitabxanaşünaslıq ədəbiyyatında mübahisəli bir məsələ kimi izah olunur. Lakin belə bir nəticəyə də gəlmək olar ki, onluq təsnifatın Bekonun elmlər təsnifatı ilə ciddi əlaqəsi yoxdursa da hər halda Düinin onluq təsnifatına özündən əvvəlki bir sıra elmlər təsnifatı kimi Bekonun elmlər təsnifatının da müəyyən təsiri olmuşdur.

Qeyd etmək lazımdır ki, Düinin "Onluq Təsnifatı" öz dövrü üçün son dərəcə mütərəqqi rol oynamışdır. Lakin bununla belə bu təsnifat bir sıra ciddi nöqsanlardan da uzaq deyildir. Təsnifatın praktiki cəhətlərinə daha çox fikir verən Düi onun sistemləşdirilməsində elmi cəhətləri unutmuş, möhkəm məntiqi ardıcıllıq və əlaqə yarada bilməmişdir.

Bir sıra alimlər Düinin təsnifatının elmi cəhətdən zəifliyini onun kitabxana sahəsində təcrübəsinin azlığı ilə izah edirlər. Həmçinin qeyd edirlər ki, o, hələ gənc olduğu üçün özündən əvvəlki təsnifat sistemlərinə tənqidi yanaşa bilməmişdir. Ona görə də Düinin təsnifatında bir sıra nöqsanlar mövcuddur:

1. Elmlər arasında məntiqi ardıcıllıq yoxdur. Qohum elmlər biri-birindən ayrı düşmüşdür. Məsələn: filologiya ədəbiyyatdan, tarix ictimai elmlərdən ayrı verilmişdir.

2. Bəzi iri bölmələr 10 şöbə daxilində özünə yer tuta bilməmişdir. Bunlara tibb, kənd təsərrüfatı və texnika aiddir ki, onlar 6-cı şöbədə verilmişdir; siyasət, hüquq, pedaqoqika 3-cü şöbədə verilmişdir; hərbi iş yarım şöbədə deyil, yarım bölmədə özünə yer tara bilmişdir – 335. Bu onunla əlaqələndirilir ki, Düi 10 şöbə daxilindən kənara çıxa bilməmişdir.

3. Təsnifatın 10 şöbə daxilində verilməsi bəzi şöbələrin həddən artıq yüklənməsinə səbəb olurdu ki, bunun nəticəsində qeyri-bərabərllik əmələ gəlirdi.

XIX əsrin məşhur Amerika təsnifatçılarından biri də Çarlz Ketterdir (1837-1903). (4,191) Əlifba, sistemli və predmet kataloqlarının tərtibi metodikasına əsaslanan, onların prinsiplərini müəyyənləşdirən Ç.Ketter öz təsnifatı üzərində xeyli çalışmışdır. O, Boston Ateneumu kitabxanasında uzun müddət kitabxanaçı işləmiş, 1877-ci ildə fondun yenidən təşklində iştirak etmişdir. Ketter fondun təhkimli düzülüşündən sistemli düzülüşə keçmək üçün M.Dyünin "Onluq təsnifat"ından istifadə etmək qərarına gəlir. Lakin sonradan o özünün bu fikrindən əl çəkir və göstərir ki, onluq təsnifat heç də bütün fondun istər məzmun və istərsə də bölmələrini əhatə edə bilməz. Bu məqsədlə o, 1879-cu ildə bir məqalə çap etdirir. Burada Ketter öz yeni genişləndirilmış təsnifatının əsas sxemini verir. 1882-ci ildə çap olunan "Boston Ateneumu" kitabçasında o yenidən bu məsəyə qayıdır. Ketterin təsnifatı bir neçə dəfə təkrar çap olunmüşdur (1891, 1893 və s.). Onun sxemində əsas şöbələriin yerləşdirilməsi ardıcıllığı daha məntiqidir. Məsələn, "Tarix", "İctimai elmlər","Dilçilik və ədəbiyyat" və digər şöbələr birinə yaxınlaşdırılmıdır. Təsnifat müxtəlif miqyaslı kitabxanalar üçün nəzərdə tutulmuşdu.



Təsniffatın ilk variantı 1000 cild kitabı olan kitabxana üçün, 2-ci variantı 2000 cild kitabı olan kitabxana üçün və nəhayət 7-ci variantı 10 milyon fondu olan kitabxana üçün nəzərdə tutulmuşdu. Ketter təsnifatını cəmi bir səhifədə yerləşdirərək cəmi 11 bölgüdən ibarət olmuşdur. Yeddinci variant isə 800 səhifəlik bir əsər idi. Onun birinci sxemində 8, ikincidə 15, üçüncüdə 22, yeddincidə 26 şöbə verilmişdir.

Həmin təsnifatın tərtibində Ketterin məqsədi müxtəlif ədəbiyyat fonduna malik olan Amerikanın bütün kütləvi kitabxanaları üçün vahid təsnifat cədvəli yaratmaq idi. Tərtibat cəhətdən bütün cxemlər nümunəvi idi. 6-cı cxem üçün əlifba-predmet göstəricisi də tərtib edilmişdir.Əsas şöbələr latın hərhləri ilə işarə edilmişdir. Ketterin təsnifatının 3-cü cxeminin əsas bölmələri bunlardır:

A Ümumi şöbə Q Tibb

B Fəlsəfə R Tətbiqi elmlər və texnika bütünlükdə

E Tərvümeyi-halS Mühəndis işi. İnşaat. Nəqliyyat

F Tarix T İstehsalat və sənətkarlıq

G Coğrafiya və səyahət U Hərbi incəsənət

H İctimai elmlər bütünlükdə V Əyləncəli incəsənət

W Zərif incəsənət

İ Sosiologiya X Dilçilik

J Siyasət V Ədəbiyyat

K Hüquq VF Bədii ədəbiyyat

L Dəqiq elmlər Z Kitabxanaşünslıq

M Təbiətşünaslıq tarixi

Təsnifatın ümumi qruplaşdırılması, şöbələrin ardıcıllığı öz müsbət cəhətləri ilə fərqlənirdi. Məsələn, tarix, coğrafiya bir qədər irəli çəkilmiş və digər ictimai elmlərə yaxınlaşdırılmışdır. Dilçilik geri çəkilərək ədəbiyyata yaxınlaşdırılmışdı. Hərbi iş ictimai elmlərdən ayrılaraq tətbiqi elmlərə gətirilmişdi. Ümumiyyətlə, texnika şöbəsinə dağ işi və metallurgiya, energetika, kimyəvi texnologiya və s. aiddir.

Kitabxanaşünaslıq bölməsi diqqəti çox cəlb edir. Burada kitab istehsalına aid nə varsa hamısı bir yerdə toplanmışdır. Məsələn: nəşriyyat işi və kitab ticarəti, kitabxana işi və biblioqrafiya.

Düinin təsnifatından fərqli olaraq Ketterin təsnifatında müvafiq hərflər artırılmaqla daha kiçik yarımbölmələr yaradıla bilərdi. Bundan başqa

genişləndirilmiş təsnifatda standart forma bölgüləri kimi qəbul edilmiş müəyyən rəqəmlər, standart coğrafi bölgüsünü ifadə edən rəqəmlər, müəllif işarəsi təsnifatın onun üstün cəhətlərini və müsbət xüsusiyyətlərini göstərir.

Ketter özündən əvvəlki müəlliflərdən fərqli olaraq ilk dəfə öz təsnifatında standart forma bölgülərdən istıfadə etmişdir. Ketterin təsnifatından forma (tipik) bölgüləri aşağıdakılardır:

1. Nəzəriyyə
2. Öyrənmə
3. Biblioqrafiya
4. Tarix
5. Lüğətlər. Ensiklopediyalar
6. Rəhbərlik. Cədvəllər
7. Dövrü nəşrlər
8. Cəmiyyətlər
9. Kolleksiyalar

Ketterin təsnifata gətirdiyi yeniliklərdən biri də rəqəm indeksləri ilə işarə edilən coğrafi cədvəl idi. Coğrafi cədvəl təsnifatın əsas hissəsindən birini təşkil edirdi. Bu cədvəl ayrıca sxemdə verilərək sistemi ağırlaşdırmırdı. Cədvəldə hərf və rəqəmlərdəm istifadə edilirdi. Burada ümumi anlayışlar – hərflə, coğrafi anlayışlar rəqəmlə işarələnirdi. Məsələn: Ğ-tarix, 45 İngiltərə, yəni Ğ 45-İngiltərənin tarixi; O-coğrafiya olduqda, O 45-İngiltərənin coğrafiyası olacaqdır və s.

Ketterin cədvəlində əsas şöbələr hərf, forma və coğrafi bölgülər isə rəqəmlə işarələnirdi.

Düinin təsnifatından fərqli olaraq Ketterin təsnifatında ardıcıllıq gözlənilmirdi ki, bu da onun daha xırda şöbələrə bölünməsinə imkan verirdi.

Təsnifləşdirmə və indeksləşdirmə məsələsinə gəldikdə Ketter qeyd edirdi ki, nəzəri cəhətdən bunlar ayrı-ayrılıqda başa düşülürsə də praktiki cəhətdən bunların arasında möhkəm əlaqə vardır. Ona görə də o öz sistemi üçün işarələri sadə, qısa və elastik adlandırıdı.

Onluq metodu ən sadə metod adlandıraraq Ketter qeyd edirdi ki, kitabxana təsnifatı üçün həmin metod ayağa geyilməmiş ayaqqabıya bənzəyir. Bəziləri belə qeyd edirdilər ki, rəqəmlər hərflərdən daha yaxşı yadda qalır. Ketter bunların əleyhinə çıxaraq qeyd edirdi ki, dostların insialları onların ünvanlarından daha yaxşı yadda qalır.

Ketterin təsnifatının köhnəlməsinə baxmayaraq o öz dövründə böyük şöhrət qazanmışdır. Düi və Ketterin təsnifatları bir dövrə təsadüf edir.



Bunların hər ikisinin öz dövrü üçün əhəmiyyəti vardır. Düinin təsnifatı süni cəhətdən tərtib olunmuş təsnifat idi. Ketterin təsnifatı isə məhz elmlərin təsnifləşdirilməsinə əsaslanan təsnifat idi.

Qeyd etmək lazımdır ki, hər iki təsnifat həm Düinin, həm də Ç.Ketterin təsnifatları yeni bir yolun, vahid beynəlxalq təsnifatın yaranması yolunun əsasını qoymuşdur. Məhz buna görə də XIX əsrin sonralarından başlayaraq dünyanın hər yerində olduğu kimi, Qərbi Avropada da vahid təsnifat sisteminin yaradılması məsələsinin zəruriliyi açıq-aşkar özünü göstərirdi.

XIX əsrin sonu XX əsrin əvvəllərində yaranan böyük təsnifat sxemlərindən biri ABŞ-ın Konqres kitabxanasının təsnifatıdır.(5,s.119) 1800-ci ildə əsası qoyulan bu kitabxananın fondu qısa müddət ərzində zənginləşir. Buna görə də Konqres kitabxanasında ədəbiyyatın sistemləşdirilməsi ciddi bir məsələ kimi qarşıda durur. Bu məqsədlə təşkil olunun kitabxana təsnifatı komissiyasına Çarlz Martel rəhbərlik edir.

Çarlz Katterin tamamlanmış 7-ci təsnifatı əsasında yaranan ABŞ-ın Konqress kitabxanasının təsnifatı 1901-ci ildən başlayaraq ayrı-ayrı bilik sahələri üzrə nəşr olunurdu. Ümumiyyətlə, təsnifat 28 cilddən və 6000 səhifədən ibarət olmuşdur.

Konqress kitabxanası sxemində əsas şöbələr latın əlifbasının böyük hərfləri ilə işarə edilmişdir. Bu sxemdə də şöbə indeksinə latın əlifbasının ikinci bölmə hərflərini, habelə müxtəlif rəqəmlər əlavə etməklə şöbələr daxilində bölmə və yarımbölmələr əmələ gətirilmişdir. Məsələn, T – texnika, TE – yol işi, TH.123 – inşaatın bölmə daxilində yer sırası və s.

Konqress kitabxanasının təsnifatının əsas şöbələri bunlardır.

A Ümumi şöbə. Poliqrafiya M Musiqi
B Fəlsəfə N İncəsənət
C Tarix. Köməkçi fənnlər P Dilçilik
D Tarix və ölkəşünaslıq Q Dəqiq elmlər
E Amerika və ABŞ R Tibb
F ABŞ (ölkəşünaslıq) S Aqrar mədəniyyət
G Coğrafiya. Antropologiya T Texnologiya
H Coğrafi elmlər və iqtisadi U Hərbi iş
elmlər
Y Dənizçilik işi
J Siyasi elmlər Z Biblioqrafiya və
K Hüquq. Xalq maarifi kitabxanaşünaslıq

Gələcəkdə cədvəli genişləndirmək məqsədi ilə beş hərf (İ, O, W, X, Y) rezerv saxlanılmışdır.

Burada ümumi şöbə, ictimai elmlər, tətbiqi elmlər (tibb, kənd təsərrüfatı, texnika, hərbi iş və dənizçilik işi) əsas cərgədə verilmişdir. Biblioqrafiya və kitabxanaşünaslıq isə Ketterin cədvəlində olduğu kimi ümumi şöbədən çıxarılaraq cərgənin axırında verilmişdir. Tarix və coğrafiya digər ictimai elmlərlə birləşdirilmiş, dilçilik ədəbiyyatla bir yerdə verilmişdir. Özündən əvvəlki sistemlərdən fərqli olaraq psixologiya fəlsəfədə deyil, təbii elmlərə daxil edilmişdir. Bu təsnifatda şöbələr arasında bərabərliyə daha çox yer verilmişdir. Kitabxananın ədəbiyyat fonduna uyğun olaraq ictimai elmlərə daha çox yer verilmişdir, təbii elmlər isə 1-ci şöbədə öz əksini tapmışdır

Cədvəlin üstün cəhətlərindən biri odur ki, burada coğrafi və forma təyinediciləri cədvəldə ayrıca deyil, məhz bu bölmələr daxilində verilmişdir.

Burada əsas şöbələr latın, yarımşöbələr isə qarışıq latın əlifbası ilə işarələnirdi. Məsələn, Q – elm, QA – riyaziyyat, QB – astronomiya, QC – fizika və s. Sonrakı rubrikalar üçün isə rəqəm işarələrindən istifadə olunurdu (0001-9999 qədər).

Şöbələr daxilində ədəbiyyat xronoloji prinsipə əsasən əlifba sırası ilə düzülürdü.

Cədvəlin xarakterik xüsusiyyətlərindən biri də odur ki, kitablar bir çox hallarda bilik sahələri üzrə deyil ölkəşünaslıq əlamətlərinə görə qruplaşdırılırdı. Məsələn: Yapon dili haqqında və ya onun tarixi haqqında ədəbiyyat dilçilik və yaxud tarix şöbəsində əks etdirilməyərək ümumiyyətlə bu ölkə haqqında olan ədəbiyyat kompleksində əks etdirilir.

Qeyd etmək lazımdır ki, Konqress kitabxanasının təsnifatı Martenin dövründə və sonra da həmin ktabxanada müvəffəqiyyətlə tətbiq olunsa da universal onluq təsnifat yarandıqdan sonra o yavaş-yavaş aradan çıxarılır.

Bu dövrdə yaranan təsnifatlardan biri də ingilis kitabxanaşünası Ceyms Braunun (1862-1914) təsnifatıdır.(5,s.123) Onun "Predmet" təsnifatı 1906-cı ildə nəşr edilmişdir. Bu təsnifat Braundan əvvəlki (Düi, Ketter) və ondan sonrakı (Bliss, Ranqanatan) təsnifat sxemləri arasında özünə layiqli bir yer tuta bilmişdir. Onun sxemində elmi öyrənmə obyekti 4 böyük şöbədə qruplaşdırılır.

1. Materiya və qüvvə
2. Həyat
3. İdrak
4. Yaddaş



Burada qeyri-üzvi təbiətdən insana və cəmiyyətə doğru təkamül nəzərdə tutulur. O qeyri-üzvi təbiət haqqında elmlərə "materiya" haqqında elmlər kimi baxır, insan və cəmiyyət haqqında elmləri isə insan idrakı ilə əlaqələndirirdi.

Bu təsnifatın əsas xüsusiyyətlərindən biri odur ki, burada nəzəri elmlərlə tətbiqi elmlər arasında boşluq aradan götürülmüşdü. Braun bir predmet haqqında bütün məlumatı bir kompleks altında cəmləşdirməyə çalışırdı. Məsələn, işıq fizikası şöbəsindən sonra işıqlandırma texnikası gəlir və beləliklə bu iş davam etdirilir. Bunun nəticəsində "predmet kompleksi" yaradılmışdır. Heç təsadüfi deyildir ki, onun təsnifatı da "predmet" təsnifatı adlandırılmışdır.

Lakin qeyd etmək lazımdır ki, elmlərin belə qruplaşdırılması bəzən mexaniki birləşmələr nəticəsində bir sıra elmlər ayrı-ayrı şöbələrdə yerləşdirilirdi. Məsələn, texnika şöbəsini müstəqillikdən çıxarıb təbiəşünaslığın ayrı-ayrı bölmələrinə aid edərək Braun texniki fənnlərin eyni zamanda nəzəri elmlərdən asılılığını unudurdu.

Braunun təsnifatında bəzi şöbələrin daha uğurlu olduğunu qeyd etmək olar. Məsələn: onun təsnifatında dilçiliklə ədəbiyyatşünaslıq birləşdirilmişdir, bədən tərbiyəsi və idman əvvəllər incəsənətə aid olduğu halda Braunun təsnifatında tibbə yaxınlaşdırılmışdır, kitabxanaşünaslıq və biblioqrafiya ümumi şöbədən çıxarılmışdır.

Braunun təsnifatının əsas şöbələri latın hərfləri ilə işarələnirdi, daxildə 3 rəqəmli işarələrdən istifadə edilirdi. Onun təsnifatının əsas şöbələri aşağıdakılardır:

A Ümumi
B-D Fizika elmləri
E-F Biologiya elmləri
G-H Etnologiya və tibb
İ - İqtisadi biologiya
J-K Fəlsəfə və din
L- İctimai və siyasi elmlər
M - Dilçilik
N - Bədii ədəbiyyat
O - W Tarix, coğrafiya
X Tərcümeyi-hal

Şöbə daxilində isə ədəbiyyat belə qruplaşdırılırdı. Məsələn, -A 100 Tərbiyə, -A 300 Məntiq, -A 400 Riyaziyyat və s.

Hər şöbənin daxilində onluq prinsipi deyil, müstəqil nömrələnmə prinsipi irəli sürülürdü. Əlifbaya uyğun olaraq 24 hərf işarəsindən istifadə olunurdu ki, bunlara əsasən lazım gəldikdə 24 min indeksdən istifadə etmək olardı.

Braun öz təsnifatına köməkçi cədvəllər (müəllif, əlifba) tərtib etmişdir. O öz cədvəlində həmçinin əlifba-predmet göstəricisi də tərtib etmişdir.

Qeyd etmək lazımdır ki, bu təsnifat kitabların rəfdə bir yerdə düzülüşündə böyük əhəmiyyətə malik olmuş və İngiltərənin kitabxanasında uzun müddət tətbiq edilmişdir.

XIX əsrdə kitabların sistemləşdirilməsinə Nyu-York şəhər kollecinin kitabxanaçısı, ilk elmşünaslardan biri Q.Blissin (1870-1955) yeni çoxaspektli təsnifatının böyük əhəmiyyəti olmuşdur.(1,s.107) Onun trelogiyası Ketter təsnifatının davamı kimi fundanıental tədqiqat əsəri hesab olunur. Blissin təsnifatı elmı, tarixi və tətbiqi xarakter daşıyır. Onun təsnifatının əsasını alternativ prinsip təşkl edir. Belə ki, Bliss müəyyən kitabxana şəraitində nəzərdən keçirilmiş bir neçə sxemdən ən əlverişlilərindən birini şöbə üçün seçməyə tövsiyə edirdi. Məsələn, psixologiya şöbəsi ya fəlsəfə, ya da antropologiya ilə ictimai elmlər arasından müstəqil şöbə kimi verilə bilər, yaxud texnika şöbəsi fizika bölgüləri sırasında, habelə tətbiqi elmlər şöbəsində yerləşdirilə bilər.

Blissin təsnifatının ümumi qruluşu belədir:

A Fəlsəfə və ümumi elmlər. Məntiq və riyaziyyat. Statistika
B Fizika
C Kimya
D Astronomiya
E Biologiya
F Botanika
G Zoologiya
H Ümumi və fiziki antropologiya (tibb və idman daxil olmaqla)
İ Psixologiya
J Pedaqoqika
K Sosiologiya. Etnologiya və antropo-coğrafiya.
L Ümumi tarix
M Avropa, amerikanın tarixi, coğrafiyası, etnoqrafiyası
N Amerika
O Avstraliya, Asiya, Afrika
P Din. İlahiyyat. Etika



Q Tətbiqi sosial elmlər
R Siyasi elmlər (beynəlxalq əlaqələr, siyasi partiyalar da daxil olmaqla)
S Hüquq və qanunçuluq
T İqtisadiyyat (maliyyə, ticarət, nəqliyyat da daxil olmaqla)
Ü Tətbiqi elmlər. Sənaye. Kənd təsərrüfatı. Nəqliyyat. İnşaat
V İncəsənət. Musiqi. Balet. Oyunlar
W Ümumi filologiya
X Hind-Avropa filologiyası. Dil və ədəbiyyat (ingilis dili istisna olmaqla)
Y İngilis dili və ədəbiyyat
Z Kitabxanaşünaslıq

Göründüyü kimi, Blissin təsnifatı 26 şöbədən ibarətdir. Bu təsnifat öz elastikliyi ilə fərqlənir. Burada hər şöbənin əvvəlində ədəbiyyatın formasına görə rəqəm işarələri verilmişdir. Məsələn:

1. Oxu zalının əsərləri
2. Kitabşünaslıq və biblioqrafiya
3. Xüsusi kolleksiyalar
4. Şöbə və filialların fondu
5. İdarə sənədləri və arxivlər
6. Dövrü nəşrlər
7. Qarışıq materiallar
8. Yerli əhəmiyyətli fond
9. Köhnəlmiş kitablar

Məsələn: əgər fizika B, dövrü nəşrlər 6 indeksi ilə işarələnirdisə, onda fizikaya dair dövrü nəşrlər B 6 indeksini alırdı.

Bliss öz təsnifatı üçün bir sıra köməkçi cədvəllər tərtib etmişdir: ümumi bölgülər (hər şöbə üçün), coğrafi və analitik bölgülər müəyyən şöbələr nəzərdə tutulmuşdur.

Cədvəlin indeksləşməsi diqqəti xüsusilə cəlb edir. Burada 25 hərf və 9 rəqəmdən istifadə edilirdi.

Blissin təsnifatının əsas xüsusiyyətlərindən biri o idi ki, o təsnifata elmi cəhətdən yanaşır və formalizmin əleyhinə çıxırdı.

Xarici ölkə kitabxanaşünaslarından təsnifat sahəsində fəaliyyət göstərən müəlliflərdən biri də Hindistan kitabxanaşünası və riyaziyyatçısı Ranqanatandır (1892-1972).(4,310) Bir sıra universitet kitabxanalarının direktoru olmuş Ranqanatan eyni zamanda özünün təşkil etdiyi kitabxanaçılıq məktəbinə və kitabxanaçılıq jurnalına rəhbərlik etmişdir. O, həmçinin Hindistan Kitabxanacılıq Cəmiyyətinin Prezidenti olmuşdur. Ranqanatan özü-

nün fəaliyyəti və elmi əsərləri ilə də məşhur olmuşdur. O, kitabxana və biblioqrafiya, sənədləşdirməyə dair 50-dən çox kitabın, 1500 məqalənin müəllifidir. Onun "Kitabxana aləmində 5 qanun" (1931) əsəri daha məşhurdur. Burada kitabxanaşünaslığın elmi fənn kimi əsas prinsipləri, kitabxanaların ictimai rolu, təsnifatın nəzəri məsələləri geniş şərh olunur. Onun 5 qanunu bunlardır:

1. Kitab istifadə üçündür
2. Hər oxucuya öz kitabı
3. Kitabı öz oxucusuna
4. Oxucu vaxtının qorunması
5. Kitabxana inkişafda olan orqanizmdir

Onun çoxsahəli "İki nöqtə vasitəsilə təsnifat" əsəri ilk dəfə 1933-cü ildə çap olunmuşdur. Ranqanatan UOT-da istifadə edilən indekslərin kombinasiyalı qurulması metodunu daha da inkişaf etdirir.

Təsnifləşdirmə üçün başlıca obyekt kitabın məzmunu sonra isə onu dəqiqləşdirən digər əlamətlər götürülür. Anlayışlar arasında əlaqə və fərqləri bildirmək üçün iki nöqtədən ( : ) istifadə edilir.

Təsnifat təkcə kitabları təsnifləşdirmək üçün deyil, həmçinin məqalə və digər nəşrlərin təsnifləşdirilməsi üçün nəzərdə tutulmuşdur.

Ranqanatanın qurduğu cədvəllər birinci nəşrdə xarakteristika, sonralar "fasetlər" adlandırılır. Məsələn, bitkiçilik şöbəsində fasetlər bitkinin növü, əlaməti, tərkib hissəsi, kənd təsərrüfatı bitkilərinin becərilməsi, coğrafi əlaməti üzrə müəyyənləşdirilir. Kimya şöbəsində kimyanın əsas problemləri, maddənin əlamətləri, elementlərin birləşdirilməsi və s. əsas götürülür.

Fasetlərin (yəni predmetə, yaxud məsələyə müəyyən bir cəhətdən baxmaq) bölgüləri hərf və rəqəm işarələrinə malikdir. Məsələn: -təbabət L, 45 ağ ciyər, 42 infeksiya xəstəliyi. İndeks belə qurulur. L 45 : 42 Yəni ağ ciyərin infeksion xəstəliyi.

Ranqanatanın təsnifat sxemi istifadə üçün mürəkkəb olduğundan geniş yayıla bilməmişdir. O sonralar da faset təsnifatı sahəsindəki fəaliyyətini daha da inkişaf etdirmişdir. Onun faset formuluna görə hər bir əsər 5 aspektdən gözdən keçirilməlidir. Konkret anlayış (bilik ahəsi, predmet, sual), maddə (maretial), enerji (proses, hərəkət), sahə (coğrafi aspekt), vaxt (dövr il)

Faset təsnifatı kitabxana fondunun məzmununu açmağa kömək edir, təsnifat sxemini qanunauyğun qurulmasına imkan yardır.

Beləliklə, aydın olur ki, M.Dyünin onluq təsnifatında 10 şöbə, Ç.Ketterin təsnifatında 26 şöbə, ABŞ konqress kitabxanasının təsnifatında 34 şöbə,



C.Braunun təsnifatında 11 şöbə, H.Blissin təsnifatında 26 şöbə, Ş.Ranqanatananın faset təsnifatında isə 36 şöbə olmuşdur.

## ƏDƏBİYYAT:

1.Kitabxanaşünaslıq :(Kitabxana kataloqları): Dəs vəsaiti /A.Xələfovun red ilə.- B.: BDU nəşr-tı, 1996.-210 s.
2.Mustafayeva, S.M. Müasir təsnitat sistemləri və onların tətbiqi //Kitabxanaşünaslıq və biblioqrafiya.- 2012.- N2.- S.30-41.
3.Шамурин, Е.И.Очерки по истории библиотечно-библиографической классификации/Е.И.Шамурин.-М., 1955-1959.-Т.1. -400 с.
4.Шамурин, Е.И.Очерки по истории библиотечно-библиографической классификации/Е.И.Шамурин.-М., 1955-1959.- Т.2.1959.-563 с.
5.Эйдельман, Б.Ю. Библиотечная классификация и систематический каталог: Учебник/ Б.Ю. Эйдельман.-М.: Книга, 1977.-312 с.

**С.М.Мустафаева,**
**С.Гаджиева**

## РАЗВИТИЕ ТЕОРИИ БИБЛИОТЕЧНОЙ КЛАССИФИКАЦИИ

### Р Е З Ю МЕ

В статье освещаются развитие теории библиотечной классификации. Широко характеризуются классифации книг за рубежом от первых библиотек до XIX века, классификационные системы крупнейших библиотек, системы университетских библиотек. В данной статье также говорится о классификации книг в России, характеризуются классификации различных библиотечных систем.

**S.M.Mustafayeva,**
**S.Hajiyeva**

## DEVELOPMENT OF THE THEORY OF LIBRARY CLASSIFICATION

### SUMMARY

The paper highlights the development of the theory of library classification. Widely characterized classification of books abroad from the first libraries to the XIX century, the classification systems of the largest libraries of university libraries. This article also describes the classification of books in Russia, characterized by the classification of different library systems.